# Baba Seyidağa türbəsi

**Baba Seyidağa türbəsi (ocağı) Masallı rayonunun dini-tarixi abidələrindən biridir. Türbə rayonun Mahmudavar (Mədo) kəndində, qəbirstanlıqda yerləşir. XVI əsrin abidəsi sayılan türbə adından da göründüyü kimi Seyidağa adlı müqəddəsin adını daşıyır. Baba Seyidağanın tam adı və kimliyi barədə dəqiq məlumat olmasa da, Seyidağa adını daşıması onun seyid, peyğəmbər nəslindən olduğunu göstərir. Eyni zamanda Seyidağa adının qarşısında Baba sözünün yazılması onun böyük ruhani alimi, təriqət başçısı olduğunu söyləməyə əsas verir.**



Tarix elmləri doktoru Məşədixanım Nemət ərəbcə "şeyx", "həzrət", farsca "pir", azərbaycanca "baba", "ağa" sözlərinin orta əsrlərdə müsəlman ölkələrində ləqəb olduqlarını və bu adların böyük ruhani alimlərə, təriqət başçılarına verildiyini yazır (Azərbaycanda pirlər. B., 1992, səh.6).

Görünür, Baba Seyidağa da böyük ruhani alim kimi İslamı təbliğ etmək üçün orta əsrlərdə bu əraziyə gəlmiş, Mahmudavarda yaşamış və burada vəfat etmişdir. Ona olan inam və ehtirama görə qəbri ziyarətgaha çevrilmişdir.

Baba Seyidağa türbəsinin üzərində müxtəlif vaxtlarda üç dəfə tikili inşa edilmişdir. İlk tikili Seyid Miri Musa oğlu Əliyevin (1927-1991) şəxsi vəsaiti hesabına ötən əsrin 50-ci illərində, təqribən 1953 - 1955-ci illər aralığında çiy kərpicdən inşa olunmuşdur. Həmin tikili 1990-cı illərin əvvəllərində sökülərək yerində yenidən Seyid Miri Əliyevin vəsaiti hesabına məqbərə tikilmişdir. Bu məqbərə də 2007-2008-ci illərdə sökülmüş, yerində Seyid Mirinin oğlu Mirməməd Əliyevin vəsaiti hesabına qırmızı kərpicdən olan indiki məqbərə tikilmişdir.

Məqbərənin bir qapısı və üç pəncərəsi vardır. Qapı düzbucaqlı, plastik materialdan olan pəncərələr isə tağlıdır. Damı dəmir təbəqə ilə örtülmüşdür. Məqbərəyə iç və çöl tərəfdən suvaq çəkilmiş, üzərinə emusiya sürtülmüşdür.

Baba Seyidağa üçün qoyulmuş başdaşı orta əsrlərə aid olub, üzərində günəş təsviri həkk edilmişdir (Musarza Mirzəyev. Mənim Masallım. B., 1991, səh. 51).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarına əsasən Baba Seyidağa türbəsi 4904 invertar sayı ilə XVI əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınmışdır.

Baba Seyidağa türbəsinin (ocağının) yerləşdiyi qəbiristanlıq da ziyarətgahın adı ilə Baba Seyidağa qəbiristanlığı adlanır. Qəbiristanlıqdan bu gün də istifadə olunur. Burada əsasən seyid nəslindən olanlar dəfn olunur.

Nazirlər Kabinetinin məlum qərarına əsasən Baba Seyidağa qəbiristanlığı da 5965 invertar sayı ilə Orta əsrlərə aid yerli əhəmiyyətli arxeoloji abidə kimi qeydə alınmışdır.

**İldırım ŞÜKÜRZADƏ,**
**Lənkəran rayonunun Havzava kənd tam orta məktəbinin tarix müəllimi**

**Azad Azərbaycan.- 2022- ci il.- 12 may.- S. 8.**